

Nazim Məmmədov

# İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsinin səbəbləri və əhəmiyyəti

*(Əvvəli ötən sayımızda)*

Döyüşlərdə, bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü. Vətənpərvər xalqımızın onlar üçün əziz olan və inandıqları Prezidentini necə dəstəklədiyini, onun ətrafında sıx birləşdiyini bir daha təsdiqləndi. “Ali Baş Komandanın bircə əmrinə hazırıq” - deyən Azərbaycan əsgər və zabitləri öz sözlərinin sahibi olduqlarını döyüşdə sübuta yetirdilər.

Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətlərinin birində demişdir: “Düşmənin əlində Azərbaycan Silahlı Qüvvələrinə məxsus olan bir dənə də hərbi texnika yoxdur. Döyüşlərin obyektiv müşahidə nəzarəti var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında böyük qələbə əldə etdi. Azərbaycan Ordusu öz üstünlüyünü göstərdi. Azərbaycan əsgəri və zabiti yüksək mənəvi-psixoloji keyfiyyətlər göstərdi, mənəvi ruh göstərdi. Çünki, əsgər başa düşür ki, o öz torpağı uğurunda vuruşur, öz torpaqlarını azad edir. Ermənistan əsgərləri işğalçıdır. Döyüş gedən torpaq onların torpağı deyil. Ona görə də döyüş əməliyyatlarında erməni əsgəri mövqelərini qoyub qaçır. Azərbaycan əsgəri isə öz torpağı uğurunda baş qoyur, canından keçirdi”.

Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycan, cəbhədə əldə etdiyi bu qələbələrin əsasını son 17 il ərzində qoydu. Ordumuzun gücü-qüdrətinə mühüm önəm verilib, ən müasir döyüş texnikasının alınması gerçəkləşdirib. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılıb. Azərbaycan Prezidenti çıxışlarının birində bu barədə danışarkən demişdir: “Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırıqlarını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatlarının bundan sonra da uğurlu nəticələri olacaqdır”.

Müharibədən keçən illər ərzində Azərbaycan bir çox nüfuzlu, beynəlxalq və regional təşkilatlarla hərtərəfli əlaqələr qurmuş və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini bu təşkilatların çərçivəsində sülh yolu ilə həll etməyə çalışmışdır. 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev münaqişə ilə bağlı Azərbaycanın mövqeyini qəti şəkildə ifadə edərək demişdi: “Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir, olmayıbdır və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağ heç vaxt müstəqil ölkə olmayacaqdır, Azərbaycanın razılığı olmadan bu mümkün deyildir. Azərbaycan isə buna heç vaxt öz razılığını verə bilməz. Dağlıq Qarabağda yaşayan ermənilər və orada yaşayacaq azərbaycanlılar muxtariyyət statusu çərçivəsində yaşamalıdırlar və bu sahədə dünyanın ən qabaqcıl təcrübəsi tətbiq edilməlidir. Bizim prinsipial mövqeyimiz bundan ibarətdir və biz bu mövqedən bir addım geri atmayacağıq. Çalışacağıq bütün imkanları - həm siyasi , həm iqtisadi, həm diplomatik, həm başqa imkanları - işə salaraq, bu məsələni tezliklə, ədalətlə, beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edək ki, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına tezliklə qayıda bilsinlər. Əgər bu imkanlar tükənməzsə digər vasitələrdən istifadə etmək məcburiyyətindəyik”.

Beləliklə, döyüşdə uduzan, məğlub olan Ermənistan müqavimətini dayandıraraq Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməkdən başqa əlacı qalmadı. Azərbaycan, Rusiya prezidentlərinin və quruculuğu istiqamətində görülən ciddi tədbirlərin kiçik bir hissəsidir. Məhz elə buna görə də Azərbaycan Silahlı Qüvvələrinin hazırda dünyanın ən güclü 50 ordusundan biri olması da bunun bariz ifadəsidir.

Apardığımız araşdırmalardan məlum olur ki, ölkəmiz müasir silahlanmaya görə Avropada 2-ci, dünyada 3-cü yerdə qərar tutmuşdur ki, bütün bu uğurlar dövlət başçısının həyata keçirdiyi məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olmuşdur və proses bu gün də davam etməkdədir. Bütün bunlar Azərbaycan reallığıdır və əgər belə olmasaydı, hazırda Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan 4 qətnaməsini təkbaşına reallaşdıra, hərb meydanında düşmənə qalib gələ, cəbhə xəttinə tam nəzarət edə bilməzdi.

44 günlük İkinci Qarabağ savaşında Azərbaycanın qələbəsinin əldə olunmasında Qardaş Türkiyənin böyük mənəvi dəstəyini xüsusi olaraq qeyd etmək lazımdır. Türkiyə Respublikası ardıcıl olaraq və birmənalı şəkildə, keçən dövr ərzində təcavüzkarın pislənməsi və münaqişənin beynəlxalq hüquqi normalar çərçivəsində ədalətli həllinin tərəfdarı olmuşdur. Türkiyə Qarabağın əzəli Azərbaycan torpağı olduğunu təsdiqləməklə, ərazi bütövlüyünün toxunulmazlığı prinsipini əsas tutaraq Dağlıq Qarabağa Azərbaycanın tərkibində rəsmi status verilməsi ideyasını ATƏT, BMT, İKT və digər beynəlxalq təşkilatlarda ardıcıllıqla müdafiə edərək özünün Erdan əldə edilən böyük həcmli valyuta gəlirləri hesabına bütün Azərbaycan, eləcə də ordu sürətlə inkişaf edib və ən güclü silahlı orduya çevrildi”.

2020-ci il 44 günlük Vətən müharibəsində Cənubi Qafqazda çox böyük nüfuza və təsirə malik Rusiya Federasiyasının neytrallaşdırılması müharibənin taleyində mühüm rol oynamış və bu prosesin reallaşması Gənc lider İlham Əliyevin yorulmaz, məqsədyönlü xarici siyasətinin nəticəsi kimi qiymətləndirilməlidir. Bütün bunlarla yanaşı onu da qeyd etmək yerinə düşər ki, Ermənistanın müdafiə naziri David Tonyan müsahibələrindən birində qeyd edib ki, “Biz çox böyük bir qüvvəyə, super silahlı Azərbaycan Ordusuna qarşı vuruşduq. Məndən “bəs siz niyə silahlanmadınız”, deyə soruşa bilərsiniz. Biz də silahlı idik, ancaq kəmiyyət və resurslar baxımından imkanlar qeyri-mütənasib idi”. Azərbaycan Ordusunun kəmiyyət və resurslar baxımından güclü, əsgər və zabitlərimizin isə yüksək peşəkarlığı, mübarizə əzmi Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin vətənpərvərliyi, intellekti, dərin düşüncəsi, orijinal təfəkkürü, xalqına, torpağına bağlılığı, milli maraqları hər şeydən üstün tutması, haqq işi uğurunda mübarizə aparması işğalçının geri çəkilməsinə, döyüşdə təslim olunmasına gətirib çıxardı.

Qoşunların taktiki və strateji təyinatlı növlərinin bir-birindən fərqləndirilməsi, başqa sözlə hücum və müdafiə əməliyyatlarının müxtəlif əsgərlər tərəfindən həyata keçirilməsi lazımi nəticə verirdi. Qırxdörd günlük müharibə dövErmənistanın baş nazirinin birgə imzaladıqları müqavilə kapitulyasiyasının ifadəsi idi. Müharibədə ağır itkilər verərək, məğlubiyyətin qaçılmazlığın anlayan, dərk edən işğalçı respublikanın ilk günlərindən bəyan etdiyi şərtlərlə razılaşmağa məcbur oldu. Müharibə dövründə ordunun döyüş qabiliyyətinin stimullaşdırılması, fəxri ad və mükafatlar, orden və medallar, rütbə və pul mükafatları verilməsi və s. kimi çoxdan sınanılmış ruhlandırıcı vasitələrdən istifadə edilməsi istər-istəməz Azərbaycan Ordusunun döyüş ruhunu gücləndirdi. Müharibənin gedişində və qələbədən sonra Ali Baş Komandan bütün bunları diqqət mərkəzində saxlamışdı xalqımızın mərd oğulları müxtəlif orden və medallarla təltif olunmuş döyüşlərdə mərdlik və şücaət göstərərək düşməndən amansız intiqam alırdılar.

Qeyd edək ki, cəbhədə qələbə naminə, xalqımız “hər şey cəbhə üçün hər şey qələbə üçün” şüarını əldə rəhbər tutaraq Müzəffər Ordumuzun Ermənistan silahlı birləşmələri üzərində qələbənin təmin olunmasında əllərindən gələni əsirgəməmişlər. Azyaşlılar cəbhəyə, əsgərə məktub yazaraq onları qələbəyə ruhlandırmış, yaşlı ana corab toxuyur, digəri öz təqaüdünü cəbhəyə bəxşiş edirdi.

Yüksək dağlıq şəraitdə həyata keçirilən Şuşanın ermənilərdən təmizlənməsi əməliyyatı şübhəsiz ki, Azərbaycanın hərb tarixinə şərəfli, parlaq səhifə kimi yazılacaq və tarixi kitablarda “çətin şəraitdə yüksəkliyi azad etmə” mövzusunu öyrənilməsi üçün faktiki material kimi öyrəniləcəkdir.

Bütün bunlarla yanaşı son dərəcə yüksək dəqiqliklə hədəfi vuran və qarşısıalınmaz zərbə gücünə malik silahlarla, düşmənin ağır texnikasını və canlı qüvvəsini darmadağın edən pilotsuz uçuş aparatları ilə ordumuzun tamamilə modernləşdirilməsi Azərbaycanda ordu mənistanla sərhədlərinin açılmasını bu münaqişənin ədalətli həlli müqabilində mümkün olduğunu daim bəyan etmişdir. Regionda xüsusi çəkisi olan Türkiyənin Qarabağ münaqişəsində tutduğu mövqe, münaqişənin nizama salınması prosesində oynadığı rol və eyni zamanda onun Ermənistanla münasibətlərinin və bu zəmində yaranan problemlərin Türkiyə-Ermənistan münasibətləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli kontekstində mümkün olması fikrini daim bütün dünyaya bəyan etmişdir.

Azərbaycan Ordusunun yüksək peşəkarlığı, döyüş əzmi haqqında qardaş Türkiyənin xarici işlər naziri Mövlud Çavişoğlu dövlətimizin başçısını qələbə münasibətilə təbrik edərkən, deyib: “Sizin qələbəniz, bizim qələbəmizdir, bu böyük zəfər münasibətilə Sizi təbrik edirik. Ali Baş Komandan olaraq, Sizin rəhbərliyinizlə qəhrəman Azərbaycan Ordusu nə edə bildiyini dosta, düşmənə nümayiş etdirdi, eyni zamanda, türkün gücünü də göstərdi. Bu prosesdə Sizin rəhbərliyinizlə qardaş Azərbaycan həm döyüş meydanında, həm də masada mövcudluğunu da göstərdi. Döyüş meydanında qələbələrinizə baxmayaraq, sülh yolu ilə, atəşkəs yolu ilə də bu münaqişənin həlli üçün böyük bir liderlik göstərdiniz”.

Azərbaycan Ordusunun döyüş qabiliyyəti ilə bağlı Hərbi ekspert, “Nasionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenkonun açıqlanması da diqqət çəkir. İ.Korotçenko Birinci Qarabağ müharibəsindən danışaraq xatırladıb ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda ordu quruculuğu diqqət mərkəzində saxlanıldı, bununla bağlı mühüm tədbirlər həyata keçirildi. Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə isə iri infrastruktur neft-qaz layihəsini həyata keçirdi və bunründə Azərbaycanda mövcud siyasi partiyalar torpaqlarımızın işğaldan azad edilməsi üçün vahid mərkəzdə birləşmişdilər. Bu isə qüvvələr nisbətinin Azərbaycanın xeyrinə inkişafına təkan verir və qələbəmizi şərtləndirirdi.

Azərbaycanın öz torpaqlarını hərb yolu ilə işğaldan azad etməsi isə Ermənistanın, eləcə də, bu münaqişəyə indiyədək göz yumanların, hətta haqq qazandırmağa can atanların cavabı oldu. Azərbaycan işğaldan azad etdiyi torpaqlarda düşmənin tariximizə tutduğu divanı, dini və mədəni abidələrimizə qarşı vandal davranışı dünyaya nümayiş etdirmək imkanı qazandı. 27 ildir ki, işğal altında saxlanılan torpaqlarımızdakı şəhər və kəndlərimizin xarabalığa çevrilməsi Ermənistanın əslində bu torpaqların əsl sahibinin bir gün geri dönəcəyinə olan inamından xəbər verir. Azərbaycan haqq savaşında qalib gəlməklə yanaşı, işğalçı dövlətin əsl simasını ortaya qoymaq imkanı əldə etdi.

İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin yüksək sərkərdəlik səriştəsi, qarşıdakı çətinliyi əvvəlcədən görüb ondan düzgün çıxmaq bacarığı, rəhbərlik-liderlik istedadı, diplomatik danışıq mərifəti, soy-kökünə barizliyi, xalqına, dövlətinə, torpağına ürəkdən bağlılığı və digər sadalamadığımız ülvi dəyərləri üzə çıxdı və bütün bunlar şanlı qələbəmizi labüd etdi. Azərbaycan xalqı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tezliklə işğaldan azad olunmuş torpaqlarımızda təmizləmə, tikinti-quruculuq işlərinin uğurla davam etdirəcəyinə, məcburi köçkünlərimizin doğma yurdlarına qayıdacaqlarına inanır!

***2021***